№ 69.- S.6.
4 aprel 2024-cü il, cümə axşamı Xalq qəzeti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 186** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

**"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 2008-ci il 13 iyun tarixli 2868 nömrəli, "Təhsil müəssisələrində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydaları ilə bağlı tədbirlər haqqında" 2012-ci il 8 may tarixli 2218 nömrəli, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli, "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" 2019-cu il 10 yanvar tarixli 881 nömrəli, "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 27 iyul tarixli 2178 nömrəli və "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" 2021-ci il 20 oktyabr tarixli 2971 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 4218 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respub-likasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləş-dirilməsi tədbirləri haqqında" 2008-ci il 13 iyun tarixli 2868 nömrəli, "Təhsil müəssisələrində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydaları ilə bağlı tədbirlər haqqında" 2012-ci il 8 may tarixli 2218 nömrəli, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli, "Azərbaycan Respub-likasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" 2019-cu il 10 yanvar tarixli 881 nömrəli, "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 27 iyul tarixli 2178 nömrəli və "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" 2021-ci il 20 oktyabr tarixli 2971 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 4218 nömrəli Sərəncamının 7-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan yaşıllaşdırma və landşaft quruluşu" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 may tarixli 77 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 385 (Cild I); 2024, № 1, maddə 105) 1-1-ci hissəsi ləğv edilsin.

**2.** "Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasi-yasının aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2217 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

**3.** "Ölkədə mövcud olan qabaqcıl texnoloji avadanlıqla təchiz edilmiş elmi tədqiqat mərkəzlərinin və laboratoriyaların (tədqiqat infrastrukturunun) reyestrinin tərtib olunması və aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 avqust tarixli 340 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1447 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**4.** "Turizm Reyestrinin aparılma Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 yanvar tarixli 16 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 73 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**5.** "Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında" 1992-ci il 3 mart tarixli 122 nömrəli, "Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamənin və sudan istifadə tariflərinin təsdiq edilməsi barədə" 2002-ci il 17 iyun tarixli 97 nömrəli, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2013-cü il 4 oktyabr tarixli 288 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2006-cı il 18 mart tarixli 84 nömrəli Qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 95 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 3, maddə 272 (Cild I) 10-cu hissəsi ləğv edilsin.

**6.** "Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun Əsasnaməsinin və sanitariya-mühafizə zonasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 424 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1360 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***